# Ölkə başçımız Ağ Evin hər zaman arzulanan qonağıdır



**Avqustun ayının 8-də Vaşinqtonda Cənubi Qafqazın müasir tarixi yazıldı. Yeni səhifə açıldı, yeni bir mərhələnin əsası qoyuldu. Bu mərhələ strateji xarakter kəsb edir. Əldə edilən razılaşmalar nəhayət ki, Cənubi Qafqaza uzunmüddətli sülh gətirəcək.**

Bu razılaşmalar tamamilə Azərbaycan dövlətinin və Prezident İlham Əliyevin müəyyən etdiyi strateji xəttə, düşüncə tərzinə, irəli sürdüyü yanaşmalara cavab verir. Birincisi, bizim ən böyük istəyimiz o idi ki, münaqişə bitib və ATƏT-in Minsk qrupuna artıq nə ehtiyac var? Axı, o "de-fakto" yoxdur və onu "de-yure" də ləğv etmək lazımdır. Ermənistan bu məsələni uzadırdı. Vaşinqtonda ABŞ Prezidenti Donald Trampın vasitəçiliyi ilə keçirilən görüş çərçivəsində bu məsələ də öz həllini tapdı. Hər iki dövlətin rəhbəri bu qərara gəldilər ki, ATƏT-in baş katibinə müraciət etsinlər və Minsk qrupu buraxılsın.



Məlum olduğu kimi, 1992-ci il oktyabr ayının 24-dən ABŞ Azərbaycana qarşı 907-ci maddəni tətbiq edib. Bu, Azərbaycana qarşı dövlət səviyyəsində iqtisadi qadağa aksiyasıdır. Düzdür, 2001-ci il 11 sentyabr hadisələrindən sonra ABŞ prezidentləri bu qadağanın müddətini hər il dondururdular. Amma Bayden bunu yenidən işə saldı və Azərbaycanı hədələməyə başladı. Vaşinqtonda Trampın təşəbbüsü ilə keçirilən Azərbaycan və Ermənistan siyasi liderlərinin görüşünün nəticəsi olaraq, 907-ci maddə ləğv olundu.

Hesab edirəm ki, biz Vaşinqton danışıqlarına qiymət verərkən, bir neçə digər strateji məsələnin üzərində dayanmalıyıq. Birincisi, sülh müqaviləsinin imzalanması üçün Azərbaycanın 2 mühüm tələbi var idi. Minsk qrupunun ləğvi barədə qurumun baş katibinə müraciət edildi. Digər strateji məsələ isə o idi ki, Ermənistan konstitusiyasında Azərbaycana qarşı ərazi iddialarından söhbət gedirdi. Azərbaycan bu məsələdə prinsipial mövqeyə malikdir ki, həmin iddialar aradan qaldırılsın. Vaşinqtonda Azərbaycan və Ermənistan tərəfinin, o cümlədən ABŞ-ın iştirakı ilə imzalanmış birgə bəyannamədə əksini tapmış bəndlərdən biri də odur ki, iki ölkə arasında sülh müqaviləsinin imzalanması və onun ratifikasiya olunması üçün əlavə tədbirlərə ehtiyac var.

Əlavə tədbirlər dedikdə isə, məhz Ermənistan konstitusiyasında dəyişikliklər məsələsi nəzərdə tutulur. Ən mühüm məsələlərdən biri də Zəngəzur dəhlizinin açılmasıdır. İndiyə qədər bu məsələnin tənzimlənməsində heç bir razılıq əldə olunmur. Bu dəfə isə ABŞ prezidentinin siyasi iradəsi və onun nüfuzu sayəsində Ermənistan ərazisindən keçən, təxminən 43.5 kilometrlik beynəlxalq sülh və rifah naminə "Tramp marşrutu" reallaşdırılması barədə razılıq əldə edildi.

ABŞ Prezidenti Donald Trampın Azərbaycan Prezidenti cənab İlham Əliyevə çox böyük etimadı var. Tramp Azərbaycan Prezidentinə "siz böyük lidersiniz" ifadəsini işlətdi, qeyd etdi ki, sizə Ağ Evin rəmzi açarını təqdim edirəm. Bu açar çox nadir hallarda hansısa liderə təqdim olunur.

**Elman NƏSİROV,**
**Milli Məclisin deputatı.**

Respublika .-2025.- 10 avqust(№166).- S.9.